# Ulduzun vətən dağı



*Elçin* Mehrəliyev
***filologiya elmləri doktoru, yazıçı-publisist***

Ötən ili ədəbi mühit yazıçı Ulduz Qasımı "Kredo" qəzetinin səhifələrində davamlı, ardıcıl olaraq izlədi. Mən biləlrəkdən Ulduz Qasımın yaradıcılığını yox, elə yazıçının öz adını çəkirəm. Çünki hər bir sənətkarın özü elə onun sözüdür.

İnsafən, "Kredo" qəzetindən bir tribuna kimi istifadə edən Əli Rza Xələfli ötən il bir neçə yazıçının yaradıcılığını təhlilə çəkib. Ayrı-ayrı müəlliflərin müraciət etdikləri mövzuları, onların dil və üslub xüsusiyyətlərini yaradıcılıqları əsasında öyrənib və özündə yaranan təəssüratları oxucularla səmimiyyətlə bölüşüb. Çünki Xələfli hər bir yazısında müəlliflərin mənəvi mühitinə çox yaxınlaşır. Onları duymağa çalışır.

Burada bir məsələni də bəri başdan qeyd etmək lazımdı. Son 30 illik mərhələ Azərbaycan ziyalısı üçün gərgin bir dövr olub. Bir tərəfdən dəyişən həyatın təzadları, cəmiyyətin sürətlə təbəqələşməsi, insanların kəskinləşən sosial problemləri, bir tərəfdən də torpağın erməni vandallarının işğalı altında olması xalqına, vətəninə bağlı olan hər bir ziyalını mənən əzirdi. Bu sırada ən çox ağrı çəkən, mən deyərdim ki, söz adamlarıdır; yazıçılardır, şairlərdir, tənqidçilərdir, publisistlərdir və s. Bu mənada tənqidçi ilə, publisistlə, ədəbiyyatşünaslıq tədqiqatları ilə məşğul olan yazarlarımızla həyatını bədii yaradıcılığa həsr etmiş söz adamlarının mənəvi mühiti bir-birinə çox bənzəyir. Əgər belə demək mümkünsə, onlar eyni müstəvidə birləşirlər.

Mən "Yazıçının vətən dağı" kitabının birinci cildində də bu barədə yazmışdım ki, Ulduz Qasım ədəbiyyat üçün təsadüfi obraz deyil. O hələ məktəb illərindən yazmağa başlayıb. İlk yazıları Cəbrayılda - rayon qəzetində işıq üzü görüb. Onun sözlə qırılmaz əlaqəsi dövrün ən nüfuzlu təhsil ocağında, universitetdə, ən nüfuzlu fakültədə, "Jurnalistika" ixtisasına yiyələndiyi dövrdə də davam etmişdir. O zaman mən gənclər arasında çox populyar olan "Azərbaycan gəncləri" qəzetində işləyirdim. Fəal tələbələrlə ciddi yaradıcılıq əlaqələrimiz vardı. Və mən o vaxt da Ulduzun istedadını təsdiq edən qeydlərimlə mətbuatda çıxış etmişdim.

Nəhayət, mən Ulduzu təzədən, öz romanları ilə gördüm. O, sözün həqiqi mənasında çox ciddi yazıçı təxəyyülü və qarşısıalınmaz istedadı ilə ədəbiyyata gəlmişdi. İndi bir-birinin arxasınca təkcə Azərbaycanda yox, xarici ölkələrdə də nəşr olunan əsərləri ilə ədəbiyyat cəbhəsinin aparıcı yazarlarından biri kimi tanınır. Ömrünün 40 ilini vətəndən uzaqlarda yaşayan Ulduz Qasımı vətənə bağlayan tellər nə qədər onun şəxsi iradəsi ilə bağlıdırsa, bir o qədər də ziyalı mövqeyi ilə ilişkilidir.

"Yazıçının vətən dağı" Əli Rza Xələflinin iki cildlik tədqiqat əsəridir. Özünün qeydlərinə əsaslansaq, kitabın mahiyyətini elə onun öz sözləri ilə də ifadə etmək olar; bu əsər Ulduz Qasımın nəsr yaradıcılığını ədəbi-tənqidi düşüncələr müstəvisində təqdim edir.

Mən birinci cildə "Ön söz" yazmışam. İndi ikinci cild haqqında təəssüratlarımı yazıya gətirmək istərdim; əlbəttə, fikirlərimdə oxşar motivlər də ola bilər. Əsas odur ki, fədakarlıqla yazıb-yaradan sənətkarın ədəbi taleyini işıqlandıran tədqiqat əsərini də səmimiyyətlə oxucu diqqətinə çatdıra bilim.

Çoxlarına qəribə gələ bilər. Az qala, bütöv bir insan ömrünə bərabər olan zamanı ölkədən kənarda yaşayasan və ruh etibarı ilə bu qədər vətənin içində olasan. Əgər belə demək mümkünsə, demək, Ulduz bütün varlığı ilə doğulub-böyüdüyü yerlərə bağlıdır. Onun ümman kimi çağlayan söz aləmini təmin edən enerji elə yurda, vətənə bağlı olan sevgisidir. Sevginin necə qarşısıalınmaz güc mənbəyi olduğunu, demək olar ki, hər kəs kifayət qədər yaxşı bilir. Bəs Ulduz vətənə bağlılıq imkanlarını necə, hansı vasitələrlə təmin edib? Necə olub ki, o bu qədər vətənə, yurda, onun dərdlərinə, yaralarına ən xırda təfərrüatlarına qədər sözü ilə cavab verə bilib? "Solmayan Nərgiz" romanını, "Xocalı şikəstəsi"ni, "Qarabağda qiyamət", "Ağ göyərçinlər" kimi romanları hədsiz dərəcədə həyatla səsləşən təfərrüatlarla yazmaq necə mümkün ola bilib. Bunun çoxlu səbəbləri ola bilər. Əli Rza Xələfli bu barədə yazır: "*Vətənlə bağlı məlumatları vətəndən uzaqda yaşayan yazıçı ən müxtəlif yollarla əldə edə bilər. Amma bu gün bu müxtəlif yollar ifadəsi bir əsas yolla anlamı ilə əvəzlənib. Bu da sosial şəbəkədir. Yazıçının maraqlana biləcəyi hər hansı bir ərazi və hadisə istənilən andaca nəinki məkanı, təsir dairəsi, hadisənin içərisində olanlar - kimliklər belə, hətta video materiallar birlikdə yazıçının məlumat bazasına çevrilir. Əlbəttə, bütün bunlar yazıçı üçün tam məlumat mənbəyi ola bilməzdi, əgər yazıçı ruh etibarı ilə axtarışında olduğu yerə, məkana, zamana bağlı olmasaydı*". Göründüyü kimi qənaətlərimiz kifayət qədər bir-birinə yaxındır. Əsas odur ki, yazıçının qəlb atəşi, ürək yanğısı ilə yaratdığı əsərlərin oxucu düşüncəsinə yol tapması üçün mənəvi körpü yaradılsın. Onsuz da, Ulduz Qasımın ədəbi qəhrəmanları real həyatın canlı varlıqlarıdır. Onlar köçkünlük əzablarına dözməyib vaxtından əvvəl həyatlarını itirənlər, özlərini vətənə qurban verən şəhidlər, köçkünlüyün, vətənsizliyin əzabları altında inləyənlər - bütün bu ağrıları başa düşən insanlardır. Başqa sözlə, Azərbaycan xalqının özüdür.

Müəllif "Yazıçının vətən dağı" kitabında Ulduzun yazıçı təmənnasızlığına da diqqəti yönəldir. Axı biz çoxlarını tanıyırıq ki, heç yazdıqlarının keçmişdə deyildiyi kimi mürəkkəbi qurumamış necə məşhurluq iddiasına düşdüklərini də görmüşük. Ancaq vətən taleyini ideal kimi qavrayaraq bu yolda ömrünü sözün həqiqi mənasında şam kimi əritmək hər kəsə nəsib olmur. Xələfli Ulduz haqqında, zənnimcə, bəzi məqamlarda müşahidələri ilə mülahizə yürüdür və mən də bu müşahidələri dəqiq hesab edirəm: "...*Ulduz Qasım ədəbi arenada "Ulduz" olmaq istəyi ilə yazmayıb. Yaradıcılığının bu günkü zamanınacan bəlkə heç məşhurluq iddiası da olmayıb. Ancaq sonsuz zəhmət, sözə ilahi şövqlə bağlılıq, yaratdığı əsərlərin mənsub olduğu xalqı bütün canlılığı ilə göstərə bilməsi sayəsində özü istəsə də, istəməsə də, onu tanıtmışdır. Özü də bütün yaradıcılıq eşqi, bütöv yazıçı olmaq obrazı ilə tanıtmışdır*". Bircə onu əlavə etmək yerinə düşər ki, Ulduzun romanları illər boyu yaddaşın mənəvi ağrıları altında yaşamağın bəhrəsi olaraq ərsəyə gəlib.

"Yazıçının vətən dağı" kitabının II cildində ilk bölüm "Solmayan Nərgiz" romanı ilə bağlı düşüncələrdir. Onu da qeyd etmək yerinə düşər ki, bu roman da türk mənəvi mühitində kifayət qədər maraqla qarşılanıb. Türkiyədə və Azərbaycanda yaxşı tanınan yazıçı-publisist İmdad Avşar "Solmayan Nərgiz" romanını Ulduz Qasımın yaradıcılığının növbəti uğuru hesab edir.

Bu əsər həyat uğrunda mübarizədə döyüşə-döyüşə bərkiyən, mənən ucalan insanların həyatını təqdim edir.

Sarsılmamaq təkcə fiziki gücdən asılı deyil. Bunun üçün gərək insanın fiziki gücünə bərabər yox, bəlkə daha artıq mənəvi imkanları da olsun. İnsan təbiətən sağlam olanda iki gücünü - mənəvi və fiziki gücünü birləşdirə bilir. Bunun sayəsində cəmiyyətin özündən gələn sarsıdıcı zərbələrə qarşı davam gətirərək şəxsiyyətə çevrilir.

Xələfli "Solmayan Nərgiz"lə bağlı düşüncələrinə verdiyi başlıqlarda güc ifadəsindən təkrar-təkrar istifadə edir. O, sanki, gücü müxtəlif tərəflərdən şərh etməyə, gücün nəyə qadir olduğunu göstərməyə çalışır. Bununla da qəhrəmanlarının kimliklərini çatdıra bilir.

Müəllifin "Həyat həqiqətləri və insan əzabları" adlı düşüncələrindən "Solmayan Nərgiz"in obrazlar aləmini çox maraqlı şəkildə qruplaşdırır: *"Biz əsər boyu ayrı-ayrı obrazların həyat yolunu izləyirik. Doğrudur, bir çox hallarda ayrı-ayrı sujet xətlərinin bir-biri ilə qovuşmamasını müşahidə etsək də, bu xətlərin ümumi axarda Azərbaycan taleyi ilə bağlı mühitdə bir mənzərədə görünməkləri ilə bir bütövlük, tamlıq mənzərəsini müşahidə edirik. Yəni Əhməd-Nərgiz xətti, Əhməd-Nərgiz-Məhərrəm kişi - Bəxtiyar xətti, Nərgiz-Məhəmməd müəllim xətti, Fəzli kişi - Zeynəb xətti, ayrı-ayrılıqda Rəcəb və Hikmət xətləri, Məhəmməd-Sadıq müəllim-Camal müəllim xətləri, nəhayət, bura qədər obrazların fonunda görünən Nərgiz-Əhməd xətti... Bəlkə başqa da cizgilərlə görünən xətlər var, amma hamısını ayrı-ayrılıqda şərh etmək bir qədər yoruculuq yaradardı"*. Müəllif doğru deyir. "Solmayan Nərgiz" romanı Azərbaycan mənəvi mühitinin alt okean qatlarına nüfuz edəcək gücdədir. Bu əsərdə çoxlu adlar, ünvanlar sadalanır ki, bununla biz Azərbaycan cəmiyyətinin "Solmayan Nərgiz" dövrü ilə bağlı bütün ziddiyyətlərini, mənəvi mühitinin ağrılarını görə bilirik, duya bilirik.

Müəllif "Zülmətdən işığa" doğru başlıqlı düşüncələrində də bütün qaranlıqların sonunda işıq olduğuna oxucunu inandırır.

Biz "İnamın "Solmayan Nərgiz"i" qeydlərində Nərgizin mübarizələrdə ucalan obrazını bütün parlaqlığı ilə görür və onu öz yörəmizdə axtarmağa çalışırıq. Axı Nərgizlər tək deyildi, onlar bütövlükdə Azərbaycan xalqının işıqlı bir bahar günündə cücərə biləcək fidanlarından biridir.

"Yazıçının vətən dağı"nda ikinci bölmə "Xocalı şikəstəsinin yaralı səsi" adlanır. Bu əsər haqqında kifayət qədər mətbuatda da yazılıb. Az vaxt içərisində Türkiyə türkcəsinə çevrilib. Qardaş Türkiyənin rəsmi dairələri həmin kitabı ölkənin kitabxanaları üçün alıb. Zənnimizcə, təkcə elə bu faktın özü Türkiyədə ciddi adamlar arasında əsərin necə dəyərləndirildiyinə ən yaxşı təsdiqdir.

"Xocalı şikəstəsi"nə həsr olunmuş esselərdən birinin sərlövhəsi belədir: "Əzəlindən uca insan". Bu qeydlərdə müəllif romanın məğzi ilə bağlı maraqlı düşüncələrini qələmə alıb: "*Əgər kimsə hər hansı bir bədii əsəri təkcə ədəbi zövq üçün oxuyursa, yəqin ki, çox yanılır. Çünki hər bir bədii əsər müəyyən olunmuş, daha doğrusu, yaşanmış həyatın əks-sədasıdır. Bir az da dəqiqləşdirsək, yazıçı təxəyyülündən keçən tərəfidir. "Xocalı şikəstəsi" romanı insanları təkcə Xocalı faciəsinin miqyası ilə sarsıtmaq məqsədi güdmür. Həm də real həyat hadisələri ilə insanlara həyatı, həyatın həqiqətlərini duymaq imkanları yaradır. Əgər bütün əsərlərin mahiyyəti yalnız "bestseller" məzmunundan ibarət olsaydı, onda həyatın digər sahələri necə görünə bilərdi? Qısası, söhbət ondan gedir ki, insanlar gözəgörünməz maneələrin yaratdığı çətinliklərlə qarşılaşanda necə hərəkət etməlidirlər. Bədii əsər həm də bu suala cavab verməlidir. Bəlkə bu əsər müəyyən dövrü, zamanı əhatə etdiyinə görə burada qarşıya çıxan problemlər elə həmin dövrdə, həmin zamanda qalıb. Xeyir, belə deyil. Həyat öz mürəkkəbliyi ilə bütün zamanlarda orijinaldır. Amma oxşar suallar və problemlər həmişə ortaya gələ bilər*". Bu əsər tənqidçinin qeyd etdiyi kimi təkcə Xocalı yarasının dəhşətindən danışmır. Həm də bu faciənin sarsıtdığı insanlara qeyri-insani təbiətləri ilə nüfuz etməyə, bəlkə təcavüzə çalışanları da axıracan ittiham edir. Zənnimcə, bu əsəri oxumaq hər kəsin həyatla bağlı bir çox suallarına aydınlıq gətirə bilər.




"Yazıçının vətən dağı" kitabında tənqidçi "Qarabağda qiyamət", "Ağ göyərçinlər" romanları haqqında da ətraflı söhbət açır. Yazıçı Ulduz Qasım yaratdığı Qarabağ salnamələri ilə cəmiyyəti Qarabağ uğrunda mübarizənin finalına doğru istiqamətləndirib. Zənnimcə, tənqidçi də öz düşüncələrində yazıçının bu istəyini kifayət qədər ədəbi təhlilləri ilə əsaslandıra bilib.

"Yazıçının vətən dağı" kitabının II cildində Ulduz Qasımın çox maraqlı bir romanından da söhbət gedir. Bu, Ulduz Qasımın "Qaçaq Aslan" romanıdır. Elə buradaca qeyd etmək lazımdır ki, əsər Pişəvəri hökumətinin taleyindən bəhs edən tarixi əks etdirir. Ancaq sanki bir qanunauyğunluğun nəticəsi olaraq "Qaçaq Aslan" məqamında yaradılıb. Cənubi Azərbaycan mövzusunun yenidən çox əhatəli, psixoloji sarsıntılarla müşayiət olunan həyat hadisələri ilə gündəmə gətirilməsi xüsusilə təqdir olunmalıdır.

"Yazıçının vətən dağı" iki cildliyi həm də Ulduz Qasımın yazıçı taleyinə ədəbi mühitini əks-sədası kimi qavranıla bilər. Əsər oxucu və yazıçı arasında sözün həqiqi mənasında sarsılmayan bir körpüdür.

Biz "körpü" deyəndə həmişə Xudafərini yada salırıq. Xudafərin xalqımızın tarixi taleyində böyük rəmzdir. Ulduz Qasımın yazıçı idealı böyük Azərbaycan üçün əsl Xudafərin körpüsüdür.

24.01.2023